# Düşmən ilk gündən təlaş içindəydi...

Ədalət Kərimov Şabran rayonunun Söhbətli kəndində anadan olub. Gözünü açıb gözəllik görüb. Ədalət deyir ki, evimizin yanındakı başıqarlı şiş qayalar göz oxşayırdı.

Yazda dağların yamacını al-qırmızı lalələr bəzəyərdi. Şırıl-şırıl axan cayların səsi, quşların nəğməsi ruhumuza nəğmə oxuyardı. Elə bilirdim ki, dünya yalnız gözəllikdən ibarətdir. Qarlı bir qış gecəsi idi. Qəfildən televizorda veriliş dayandı... Səhərisi atam bir xəbər öyrənmək üçün evdən çıxıb, bir də axşamüstü geri döndü. Sanki bir günün içində qocalıb beli bükülmüşdü...

Sovet qoşunları Bakıda dinc əhalini qırıb... Sözünü bitirməmiş atamı hönkürtü tutdu. Onu heç vaxt belə aciz, köməksiz görməmişdim... Onda cəmi 7 yaşım var idi... Qəribə hisslər keçirirdim... Gözüm divara vurulmuş xalçanın üstündən asılmış tüfəngə sataşdı. Üzümü atama tutub bircə onu soruşa bildim: "Bura da gələcəklər?" Səhər uşaqları başıma yığıb, "müdafiə səddi" qururduq... Bir qədər sonra Xocalı faciəsi baş verdi. Ermənilər südəmər körpələri, qadınları, qocaları qırmışdılar. Televizorda bu dözülməz mənzərəni görüb dəhşətə gəlmişdim. Uşaq olsam da, duyduqlarımdan od tutub yanırdım. O gün qərarımı verdim ki, böyüyüb əsgər olacam. Mən də vətənimi, elimi yağılardan qoruyacağam...

Polkovnik-leytenant Ədalət Kərimov zabitliyə gedən yolun hekayəsini danışdıqca sanki o illərə qayıdır, barmaqları düyünlənir, içində qəzəb püskürür...

Ədalət Kərimov 7-ci sinfi bitirdikdən sonra 1997-ci ildə Türkiyənin İzmir şəhərində yerləşən Maltəpə əsgəri litseyinə qəbul olur. Daha sonra Türkiyənin Milli Müdafiə Universitetinin Quru qoşunları Hərbi Məktəbini (Kara Harp Okulu) bitirib vətənə dönür. Leytenant rütbəsində xidmətə başlayan Ədalət Kərimov bu gün də şərəflə öz xidməti vəzifəsini polkovnik-leytenant rütbəsində davam etdirir.

Xidmət etdiyi bu illərdə həmişə ön cəbhədə düşmənlə üz-üzə, göz-gözə olub. O deyir: "Bu illər ərzində düşmənin torpaqlarımızda etdikləri vəhşilikləri görüb, qisas gününü səbirsizliklə gözləyirdik. Bu günün gələcəyinə, düşmənə layiq olduğu cavabı verəcəyimizə adım kimi əmin idim. Ordumuzun təchizat-təminatını, döyüş hazırlığını, qoşun növlərinin komplektləşməsini və Ali Baş Komandanın qətiyyətini görüb inanırdıq ki, düşmənə layiq olduğu cavabı verəcəyimiz gün uzaqda deyil".

27 sentyabr 2020-ci ildə ordumuz torpaqlarımızı azad etmək üçün zəfər yürüşünə çıxanda Ədalət Kərimov da ön cəbhədə olub. Bölmələrin rabitəsini təmin edib. Cəbrayıldan başlanan döyüş yolu, Qubadlı, Laçın istiqamətində davam edib...

Ədalət Kərimov deyir ki, müharibə vaxtı rabitənin düzgün təşkilindən çox şey asılıdır. Döyüşən qruplarla komandanlıq arasında əlaqənin təşkili çox şeyi həll edir. Şükür ki, işimizin öhdəsindən qüsursuz gələ bildik.

Ədalət Kərimov əlavə edir ki, müharibənin ilk günündən düşmənin rabitə xəttinə düşə bilmişdik. Elə ilk gündən düşmən qorxu, təlaş içindəydi. Başlarını itirmişdilər. Düşmənin nə edəcəklərini, haradan hücuma keçəcəklərini, harada zəif olduqlarını öyrənir, onların planları haqqında dəqiq məlumatlar toplayıb komandanlığa ötürürdük. Açığını deyim ki, ermənilər bunu hiss edib təxribat xarakterli məlumatlar, dezinformasiyalar ötürməyə çalışırdılar. Düşmənin kələyi baş tutmurdu. Əksinə, biz onları öz torlarına salırdıq...

Polkovnik-leytenant Ədalət Kərimov deyir ki, zabit olmağımla, Vətənimin müdafiəsində durmağımla həmişə fəxr etmişəm. Vətən müharibəsində qazandığımız Qələbədən sonra bu hiss daha da artıb. Qürurluyam ki, torpaqlarımızın düşmən işğalından azad olunmasında mənim də payım var. Nə yaxşı ki bu problemi Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə bizlər həll etdik. Gələcək nəsillər müharibəsiz, sülh içində, gündən-günə gözəlləşən, qüdrətli Azərbaycanda yaşayacaqlar.

44 günlük Vətən müharibəsi bizə yalnız düşmən işğalı altında olan torpaqlarımızı qaytarmadı, həm də bu vətən, bu torpaq uğrunda canını hər an qurban verməyə hazır olan igid, qəhrəman oğullarımızı tanıtdı. Onlardan biri də ömrünü vətənə xidmətdə keçirmiş polkovnik-leytenent Ədalət Nüsrəddin oğlu Kərimovdur. Bu vətən durduqca gələcək nəsillər onların yazdıqları qəhrəmanlıq dastanını oxuyub deyəcəklər: "Var olun, Vətən oğulları, biz sizinlə fəxr edirik".

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.-19 noyabr.- S.4.